QANUN № 01 (351), 2024, s. 160-165



**Cahangirli Səbinə Bəgəmir qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "İnformasiya hüququ" ixtisası üzrə
2-ci kurs magistrantı
E-mail: sabinaaajahangirli@gmail.com

**UOT 34:002(075.8)**
**DOI 10.30546/2218-9130. 01.351.2024.160**

# ŞƏBƏKƏ NEYTRALLIĞI: ANLAYIŞI, TARİXİ İNKİŞAFI VƏ MƏQSƏDLƏRİ

***Açar sözlər:*** *şəbəkə neytrallığı, ifadə azadlığı, haqsız rəqabət, açıq internet, qapalı internet.*

***Ключевые слова:*** *сетевой нейтралитет, свобода выражения мнений, недобросовестная конкуренция, открытый Интернет, закрытый Интернет.*

***Keywords:*** *net neutrality, freedom of expression, unfair competition, open internet, closed internet.*

Şəbəkə neytrallığı dedikdə giriş üçün istifadə edilən cihazdan, tətbiqdən, vebsaytdan və əldə edilən məzmundan asılı olmayaraq, hər kəs üçün əlçatan, açıq və bərabər şəkildə internetə giriş imkanı nəzərdə tutulur [10]. Şəbəkə neytrallığının tərəfdarları hesab edirlər ki, bütün korporasiyalar və internet xidmət təminatçıları internet istifadəçilərinə bərabər yanaşmalıdırlar. Bərabər yanaşma dedikdə internet istifadəçilərinin girişinə məhdudiyyətlərin qoyulmaması, internetə giriş sürətinin azaldılmaması, həmçinin internetdə mövcud olan məzmunların istifadəçilər üçün bloklanmaması nəzərdə tutulur [8].

Şəbəkə neytrallığı anlayışını daha aydın şəkildə anlamaq üçün açıq və qapalı internet anlayışlarını da gözdən keçirmək labüddür.

Belə ki, açıq internet dedikdə şəbəkə üzərindən iki tərəfin bir-biri ilə olan əlaqəsinin hər hansı üçüncü tərəfin müdaxiləsi olmadan həyata keçirilməsi başa düşülür. Hər hansı bir vebsayta daxil olarkən bizimlə server arasında olan birbaşa əlaqə özü də açıq internetə ən yaxşı nümunədir və açıq internet anlayışı bu əlaqəyə hər hansı üçüncü şəxsin müdaxiləsini qəbul etmir [9].

Qapalı internet isə açıq internetin əksinə olaraq internet üzərindən bəzi məhdudiyyətləri və qaydaları dəstəkləyir. Buna ən yaxşı nümunə kimi müxtəlif şirkətlərin daxili siyasətini göstərmək olar. Belə ki, bir sıra korporativ şirkətlər işçilərinin iş vaxtı işdən kənar fəaliyyətlərlə məşğul olmasının qarşısını almaq üçün iş yerində müxtəlif vebsaytlara girişi məhdudlaşdırır, bu özü də qapalı internet anlayışını təmsil edir [9].

Şəbəkə neytrallığı anlayışı 90-cı illərdən başlayaraq aktuallıq qazanmışdır. Lakin o dövrdən bu günə qədər bu mövzu özünün tərəfdarları və əleyhdarları arasında böyük müzakirələrə səbəb olmuşdur. Şəbəkə neytrallığı müzakirələrinə aydınlıq gətirə bilmək üçün ilkin olaraq internetin hansı formada təşkil edilməsinə baxmaq lazımdır. Belə ki, internet şəbəkəsi 3 əsas hissədən ibarətdir: [2, s. 39-40] 1. Fiziki hissə; 2. Məntiqi hissə; 3. Məzmun hissəsi. Məzmun hissə dedikdə internet istifadəçilərinin gördüyü və paylaşdığı kontentlər nəzərdə tutulur, məntiqi hissə məzmun materiallarını maşın dilinə çevirən alqoritmləri əhatə edir və nəhayət, fiziki hissə isə cihazlar, kompüterlər və routerlər kimi fiziki vasitələri özündə ehtiva

edir. Bu üç hissənin hər biri bir-biri ilə fərqli formalarda əlaqələr yaradırlar. İnternetin hər üç səviyyəsində müxtəlif qeyri-qanuni əməllərlə mübarizə aparılır. Məzmun səviyyəsində bu özünü müəlliflik və əqli mülkiyyət hüquqlarının qorunması, həmçinin pornoqrafiya, qumar oyunları, təhqiramiz məzmunların qarşısının alınması kimi göstərir. Məntiqi səviyyədə bu mübarizə daha çox internet üzərindən baş verən saxtakarlıq hallarının qarşısının alınmasında göstərir. Fiziki səviyyədə isə simsiz internet sistemlərindən istifadə, müxtəlif cihazlardan qanunsuz istifadə kimi hallar müzakirə mövzusudur.

Şəbəkə neytrallığının əsas məqsədi şəbəkə təminatçıları tərəfindən məzmuna, vebsaytlara və tətbiqlərə qarşı ayrı-seçkilik edilməməsidir. Bununla yanaşı şəbəkə neytrallığının bir digər məqsədi də interneti müxtəlif kontentlərin, servis və tətbiqlərin azad şəkildə paylaşıla bildiyi bir məkana çevirməkdir. Buna əsasən də qeyd etmək olar ki, şəbəkə neytrallığının iki əsas məqsədi mövcuddur: açıqlığı təmin etmək və ayrı-seçkiliyə yol verməmək [5, s.7].

Lakin bəzən şəbəkə neytrallığının müxtəlif ölkələrdə pozulması hallarına da rast gəlinir. Şəbəkə neytrallığının pozulması necə baş verir? Belə ki, şəbəkə neytrallığı internet servis təminatçılarının və dövlətlərin şəbəkə üzərində neqativ müdaxilələri ilə pozula bilər. Neqativ müdaxilə dedikdə, bloklama, yavaşlatma, öncəlik vermək kimi hərəkətlər nəzərdə tutulur [4, s. 13].

Bloklama dedikdə istifadəçilərin müəyyən tətbiq və ya servislərə qoşulmasının internet servis təminatçısı tərəfindən tamamilə qadağan edilməsi deməkdir [4, s. 14]. Bu kimi hallarda əsas məqsəd internet servis təminatçısının özünün təmin etdiyi xidmətlərə oxşar xidmətlər göstərən tətbiq və ya servislərlə olan mövcud rəqabəti aradan qaldırmaq olur. Hansı ki, bu hal da özlüyündə haqsız rəqabətə yol açır.

Öncəlik vermə dedikdə müəyyən servislərə və ya tətbiqlərə girişin daha asan, sürətli və rahat olması nəzərdə tutulur. Bu kimi hallar daha çox özünün çatımlılıq sürətini artırmaq istəyən məzmun təminatçıları ilə internet servis təminatçıları arasında olan razılığa əsasən baş verir [4, s.15].

Digər neqativ müdaxilə növü olan yavaşlatma dedikdə internetdə olan müəyyən vebsaytlara və ya digər məzmun yaradıcılarına olan girişin qəsdən gecikdirilməsi və yavaşladılması başa düşülür. Öncəlik vermə və yavaşlatma müdaxilələri arasında müəyyən əlaqə də mövcuddur. Belə ki, müəyyən məzmun təminatçılarının əlçatanlılığı sürətləndikcə digər məzmun təminatçılarına çatımlılıq daha da yavaşlayır [4, s.16].

Şəbəkə neytrallığının ən çox gündəmdə olduğu və müzakirə edildiyi ölkə Amerika Birləşmiş Ştatları olmuşdur. Belə ki, 2000-ci illərin əvvəllərində Microsoft, Google, Amazon kimi məzmun yaradıcıları Amerika hökuməti tərəfindən şəbəkə neytrallığına zəmanət verilməsini istəmişlər. Xüsusilə 2005-ci ildən ABŞ-də bir sıra internet şəbəkəsi mövzusunda bir sıra ayrı-seçkilik halları baş vermişdir [2, s. 40]. Həmin illərdə Amerikada fəaliyyət göstərən Madison River adlı yerli telekommunikasiya şirkətinin Skype-a oxşar bir tətbiqinin istifadəsi məhdudlaşdırılmışdır. ABŞ-də baş verən internet şəbəkəsi məhdudiyyətlərinə qarşı şəbəkə neytrallığı tərəfdarları tərəfindən bir sıra addımlar atılmışdır ki, bunlardan biri də "Save the Internet" ("İnterneti qoru") Koalisiyasının yaranmasıdır. Bu koalisiyanın 4 əsas məqsədi olmuşdur: 1. Həqiqi şəbəkə neytrallığı üçün çalışmaq; 2. Mobil telefon istifadəçiləri üçün güclü mühafizə sistemi yaratmaq; 3. İctimai tezliklərin istifadəsi üçün universal çıxış; 4. Yüksək sürətli internet istifadəsi üçün universal çıxış [2, s.41-42].

Qeyd edək ki, ABŞ-də 2015-ci ildə qəbul edilmiş şəbəkə neytrallığı, 2017-ci Federal Rabitə Komissiyası tərəfindən 2-yə qarşı 3 səslə

aradan qaldırıldı. Belə ki, yeni qaydaya əsasən artıq istənilən şirkət pul ödəyərək internet şəbəkəsində öz məzmunları ilə digər şirkətlərin önünə keçə bilərdi. Həmçinin, şəbəkə neytrallığının aradan qaldırılması bəzi şirkətlərə internet şəbəkəsində ümumiyyətlə məhdudiyyətlər qoyulması ilə də nəticələnmişdi. Bununla yanaşı müxtəlif vebsaytlardan istifadə və ya müxtəlif videolara giriş imkanı əldə etmək üçün internet istifadəçilərindən əlavə ödənişin tələb edilməsi də nəzərdə tutulmuşdu. Bu hadisə cəmiyyətdə bir sıra narazılıqlar doğurdu. Təkcə fiziki şəxslər deyil, həmçinin müxtəlif şirkətlər də bu qərara öz etirazlarını bildirmişlər. Həmin şirkətlərdən biri də Burger King olmuşdur. Belə ki, Burger King cəmiyyətdə yeni qərar barəsində daha çox fərqindəlik yaratmaq üçün bu qərar qəbul edildikdən sonra onlardan eyni burgeri sifariş edən müştərilərinə münasibətdə sosial eksperiment aparmışdır. Belə ki, eyni burger üçün müxtəlif qiymətlər müəyyən etmiş və ən yüksək qiyməti ödəyən müştəriləri növbədə önə salaraq onların sifarişini daha tez hazır etmişdir. Müştərilərdə çaşqınlıq yaradan bu halla Burger King şəbəkə neytrallığının aradan qaldırılmasına diqqət çəkmək istəmişdir [12].

Daha sonra çoxsaylı etirazlar nəticəsində 2023-cü ilin 19 oktyabr tarixində Federal Rabitə Komissiyasının qərarı ilə 2015-ci il qaydalarına geri qayıtmaq və şəbəkə neytrallığının bərpa edilməsi qərara alındı.

Avropa Telekommunikasiya Tənzimləyiciləri Qurumu tərəfindən şəbəkə neytrallığı daha çox şəffaflıq çərçivəsində müzakirə edilmişdir. BEREC vurğulayır ki, şəffaflıq istifadəçilərin ehtiyaclarına ən yaxşı cavab verən xidməti seçə bilməsi üçün ilkin şərtdir. Şəffaflığın İnternet Xidməti Provayderləri ilə istifadəçilər arasında mövcud olan məlumat asimmetriyasını da azaldacağının gözlənildiyi də qeyd edilmişdir [9].

Amerika Federal Rabitə Komissiyası tərəfindən şəbəkə neytrallığının, bir növ açıq internet olduğu qəbul edilir və bunun üçün 3 şərt müəyyən edilmişdir: 1. Şəffaflıq 2. Bloklamamaq 3. Əsassız ayrı-seçkiliyə yol verilməməsi [7, s. 302].

Şəbəkə neytrallığı ilə bağlı müzakirələrin əsas səbəbi internetin hüquqi çərçivə daxilində istifadəçilər və məzmun təminatçıları üçün pulsuz yer təmin etməsindən irəli gəlir. Bu yerin itirilməsi ilə internet böyük bir transformasiyaya məruz qala bilər. Bu çərçivədə şəbəkə neytrallığı tənzimləmələrinin məqsədi internet istifadəçilərinə istədikləri məlumat və məzmuna daxil olmaq, istədikləri məlumat və məzmunu yaymaq, istədikləri tətbiq və xidmətlərdən istifadə etmək azadlığını təmin etməkdir. Bu xüsusda şəbəkə neytrallığı ilə bağlı qarşılıqlı müzakirə edilən mövzulardan biri də ifadə azadlığı məsələsidir. Bildiyimiz kimi, ifadə azadlığı BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Avropa İnsan Haqları Konvensiyası və bir sıra digər əhəmiyyətli beynəlxalq sənədlərdə, həmçinin ölkələrin milli konstitusiyalarında nəzərdə tutulmuş təməl hüquqlardan biridir [2, s. 42]. Həmçinin, internet məkanında ifadə azadlığının pozulması da ən çox rast gəlinən hallardan hesab olunur. İnternetdə ifadə azadlığı müdafiəçiləri hesab edirlər ki, şəbəkə neytrallığı ilə bağlı hüquqi tənzimləmələr internetdə ifadə axınına qarşı senzura tətbiq edilməsinin qarşısını ala bilər [2, s. 43]. Belə ki, ifadə azadlığı ilə şəbəkə neytrallığı anlayışları bir-birini tamamlayan anlayışlar hesab edilir. Şəbəkə neytrallığının olmaması fiziki və ya hüquqi şəxslərin internet üzərindən ifadə azadlığının məhdudlaşmasına gətirib çıxarır. Birləşmiş Millətlər Təşkilatının "İnternetdə insan hüquqlarının dəstəklənməsi, qorunması və bu hüquqdan istifadə etmə" ilə bağlı qərarına əsasən internet insanların bir hüququ kimi tanınmışdır. Bu qərara görə insanların offlayn qaydada sahib olduqları hüquq və azadlıqlarına, xüsusilə də ifadə azadlığına onlayn qaydada da eyni şəkildə sahibdirlər. Təbii

ki, istər şəbəkə neytrallığından, istərsə də ifadə azadlığından danışarkən qeyd etmək lazımdır ki, uşaq pornoqrafiyası, nifrət nitqi, təhqir, diskriminasiya və şiddət məzmunlu paylaşımlar bu çərçivədə mühafizə olunmur və bu tipli paylaşımlar istənilən halda yolverilməzdir və məsuliyyətə səbəb olur. Belə ki, bununla bağlı Avropa Komissiyası tərəfindən "hüquqazidd məzmun" və "zərərli məzmun" anlayışları müəyyən edilmiş və internetdə bu tipli məzmunlara qarşı mübarizə aparılması qət edilmişdir [2, s. 44-46].

Şəbəkə neytrallığından danışarkən bu qaydanın avantajlarından, xüsusən də müəssisələr və istehlakçılar üçün olan üstünlüklərindən danışmaq da labüddür. Belə ki, şəbəkə neytrallığının verdiyi ən böyük töhfələrdən biri innovasiyaların təşviqi ilə bağlıdır. İnnovasiyaların təşviqi dedikdə şəbəkəyəbərabər girişin şirkətlər arasında sağlam rəqabəti təşviq etməsi, həmçinin məzmun müxtəlifliyinin təşviq edilməsi nəzərdə tutulur [11]. Belə ki, "Journal of Telecommunications and High Technology Law" jurnalında dərc edilən araşdırmada sahibkarlıq imkanlarının təmin edilməsinə şəbəkə neytrallığının rolu vurğulanmışdır. Qeyd edilən araşdırma bunu sübut edir ki, şəbəkə neytrallığı yeni müəssisələri internetə sərmayə qoymağa sövq edir. Çünki onlar internet məkanında süni maneələrlə üzləşmədən özlərinin xidmətlərini təqdim edə bilirlər [1, s. 30-34].

Bundan əlavə, şəbəkə neytrallığının digər bir üstünlüyü istehlakçı seçimi və nəzarətinin təmin edilməsi ilə bağlıdır. İnternetə müdaxiləsiz giriş istehlakçıların onlayn məzmunun bütün spektrinə qərəzsiz girişini təmin edir. Həmçinin bu mühit onlara axtardıqları xidmətləri və ya məhsulları kənar manipulyasiya olmadan araşdırmaq və seçim etmək azadlığı verir. İstehlakçılar istədikləri zaman istədikləri məzmuna giriş əldə edərək mövcud bazarda onların istəklərinə və tələblərinə uyğun olanı rahatlıqla seçə bilirlər.

Şəbəkə neytrallığının müəssisələr və istehlakçılar üçün yaratdığı faydalardan bəhs edərkən sağlam rəqabəti təşviq etdiyini qeyd etdik. Məhz buradan yola çıxaraq bunu da bildirmək lazımdır ki, şəbəkə neytrallığı qaydasının birgə müzakirə olunduğu sahələrdən biri də haqsız rəqabət hüququ ilə bağlıdır.

Belə ki, internet şəbəkəsi üzərində bu hər iki qaydanın mövcudluğu onların müəyyən zamanlarda kəsişməsinə gətirib çıxara bilir. Şəbəkə neytrallığı mövcud onlayn bazarda ədalətli rəqabətin qorunması üçün təməl kimi çıxış edir. Şəbəkə neytrallığı qaydalarının olmaması böyük korporasiyaların internet servis təminatçılarından öz iqtisadi maraqları üçün istifadə etməsinə gətirib çıxara bilər. Belə olan halda bu korporasiyalar tərəfindən daha sürətli yükləmə müddəti, xidmət keyfiyyətinin prioritetləşdirilməsi, imtiyazlı rejimlər əldə edərək kiçik bizneslərə təsir kimi üsullardan istifadə edilə bilər ki, bütün bunlar da böyük müəssisələrin üstünlüyü və kiçik biznеslərin əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə düşməsinə gətirib çıxara bilər [3, s. 45-48].

Şəbəkə neytrallığı kiçik biznesləri onlayn mühitdə haqsız rəqabətdən qoruyan ən əsas vasitələrdən biridir. Belə ki, şəbəkə neytrallığı olmadığı halda kiçik bizneslərin üzləşəcəyi bir sıra problemlər mövcuddur. Bu problemlərə daha böyük korporasiyaların bazar üstünlüyü, kiçik bizneslərin uzaqlaşdırılması, şəbəkəyə giriş və fəaliyyətə qoyulan məhdudiyyətlər, bazara giriş üçün internet servis təminatçıları tərəfindən kiçik bizneslərə münasibətdə maliyyə maneələrinin yaradılmasını aid etmək olar [6].

Sadalananlardan da göründüyü kimi, şəbəkə neytrallığının mövcudluğu sağlam rəqabətə əsaslanan onlayn biznes mühitinin və münasibətlərinin formalaşması üçün əsas rol oynamaqdadır.

Son olaraq anlayışından, faydalarından, keçdiyi inkişaf yolundan və digər sahələrlə əlaqəsindən göründüyü kimi, şəbəkə neytrallığı müasir dünyamız üçün əhəmiyyətli olan qay-

dalardan biridir. Belə ki, gündəlik həyatımızın əsas hissəsini internet şəbəkəsindən istifadənin təşkil etdiyini nəzərə alsaq, bu mühitdə istər hüquqi, istərsə də fiziki şəxslərin azadlığının təmin edilməsi və məhdudlaşdırılmaması vacib amillərdən biridir. Şəbəkə neytrallığının mövcud olduğu onlayn mühitlərdə bu azadlıq təmin olunmaqdadır. Təbii ki, bu qaydanın mövcudluğu internetdə qanunsuz və zərərli məlumat və ya məzmunların yayılmasını və əldə edilməsini təşviq etmir və qanuni çərçivədə tətbiq edilir. Bu səbəbdən də şəbəkə neytrallığının olmaması və ya ləğvi birbaşa şəxslərin ifadə azadlığı, seçim azadlığı və məlumat əldə etmək azadlığının kobud şəkildə məhdudlaşdırılmasına gətirib çıxara bilir.

**İstifadə edilmiş mənbələr:**


1. Christopher S. Yoo, Network Neutrality and the Economics of Congestion: Article. University of Pennsylvania Carey Law School, –2006,  – p. 63.

2. Duygu Hatipoğlu Aydın, Çağdaş Ceyhan, Mustafa Berkay Aydın. İfade Özgürlüğü Açısından Ağ Tarafsızlığı Kavramı ve Türkiye'deki Hukuki Düzenlemeler ve Pratik Uygulamaları: Makale. Ankara: Mülkiye Dergisi, – 2016, – 24 s.

3. Kemal Küçükkavruk, Ağ Tarafsızlığının Gelişimi ve Rekabet Hukuku İlişkisi: Uzmanlık tezi. Ankara: Rekabet Kurumu, – 2021, – p. 89.

4. Müberra Güngör, Yavuz Göktaylar. Şebek Tarafsızlığı: Çalışma. Ankara: Bilgi Teknolojileri ve İletişim Kurumu, – 2011, – 54 s.

Tim Wu. A Proposal for Network Neutrality: Proposal. Virginia Law School, – 2002, – p. 11.

5. The Impact of Net Neutrality on Small Businesses: Article. Small Business Administration, – 2018.

6. Why Net Neutrality Matters: Protecting Consumers and Competition Through Meaningful Open Internet Rules: Hearing. Washington: U.S. Government Publishing Office,  – 2017, – p. 306.

7. What is net neutrality? [Electronic resource]/  URL: https://www.techtarget.com/searchnetworking/definition/Net-neutrality

8. What is Net Neutrality or Open Internet and why does it matter? https://www.berec.europa.eu/en/open-internet/introduction

9. What does the end of net neutrality actually mean? https://www.weforum.org/agenda/2018/06/what-the-end-of-net-neutrality-actually-means/?DAG=3&gad_source=1&gclid=Cj0KCQiAm4WsBhCiARIsAEJIEzUdSZADoVxX6D_s4zgTsZ59c1RfBYFUHlf8KOT3ooBC1JICB_fC9ZUaAg79EALw_wcB

10. Bilgi ve İletişim Teknolojileri ve Ağ Tarafsızlığı[Electronic resource] URL: https://hukukvebilisim.org/bilgi-ve-iletisim-teknolojileri-ve-ag-tarafsizligi/

11. Allow Burger King's New Ad to Explain Net Neutrality to You [Electronic resource]/ URL: https://time.com/5117628/burger-king-whopper-net-neutrality-ad/


**Джахангирли Сабина Бегемир гызы**

## СЕТЕВОЙ НЕЙТРАЛИТЕТ: КОНЦЕПЦИЯ, ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ И ЦЕЛИ

### РЕЗЮМЕ

В то время, когда технологии развиваются и Интернет используется в разных частях мира, концепция сетевого нейтралитета считается одной из важнейших концепций. Учитывая скудность источников на азербайджанском языке в этой области, необходимо создание местных источников в этой области. Исходя из этой необходимости, в статье затронуты понятие сетевого нейтралитета, период его развития, различные дискуссии и точки зрения в

этой области. Кроме того, включен анализ сетевого нейтралитета в отношении свободы выражения мнений, а также роли сетевого нейтралитета в недобросовестной конкуренции.

Сетевой нейтралитет является одним из важных правил для нашего современного мира, что видно из его концепции, его преимуществ, пути его развития и его связи с другими областями. Итак, учитывая, что основную часть нашей повседневной жизни составляет использование сети Интернет, одним из важных факторов является обеспечение и не ограничение свободы как юридических, так и физических лиц в этой среде. Эта свобода обеспечивается в онлайн-среде, где существует сетевой нейтралитет. Разумеется, существование этого правила не способствует распространению и приобретению незаконной и вредной информации или контента в Интернете и применяется в рамках закона. По этой причине отсутствие или отмена сетевого нейтралитета может напрямую привести к грубому ограничению свободы выражения мнений, свободы выбора и свободы доступа к информации.

**Cahangirli Sabina Bagamir**

**NET NEUTRALITY: CONCEPT, HISTORICAL DEVELOPMENT AND GOALS**

**SUMMARY**

At a time when technologies are developing and the Internet is used in different parts of the world, the concept of net neutrality is considered one of the most important concepts. Considering the scarcity of sources in the Azerbaijani language in this field, it is necessary to create local sources in this field. Based on this necessity, the concept of net neutrality, its development period, and various debates and viewpoints in this field have been touched upon in this article. In addition, the analysis of net neutrality in relation to freedom of expression, as well as the role of net neutrality in unfair competition, are included.

Net neutrality is one of the important rules for our modern world, as can be seen from its concept, its benefits, its development path, and its connection with other fields. So, taking into account that the main part of our daily life is the use of the Internet network, one of the important factors is ensuring and not restricting the freedom of both legal and physical persons in this environment. This freedom is ensured in online environments where net neutrality exists. Of course, the existence of this rule does not encourage the dissemination and acquisition of illegal and harmful information or content on the Internet and is applied within the legal framework. For this reason, the absence or abolition of net neutrality can directly lead to the gross restriction of individuals' freedom of expression, freedom of choice, and freedom of access to information.

**Redaksiyaya daxilolma tarixi: 25.12.2023**
**Təkrar işlənməyə göndərilmə tarixi: 30.12.2023**
**Çapa qəbul olunma tarixi: 07.01.2024**